Sadullayev S.A.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.95-105
UDC: 342

# The requirements of the Global Compact on safe, orderly and legal migration and the migration legislation of Azerbaijan

**Abstract:** The article is devoted to the comparison of the principles of the Global Compact for Safe, Orderly and Regular Migration with the principles of the migration legislation of the Republic of Azerbaijan. The author is of the opinion that the national legislation fully corresponds to these principles and further develops them, serves to reliably ensure the human rights and freedoms of migrants, expand cooperation in the field of migration, and prevent cases of illegal migration.

**Keywords**: migration; Global Compact; legal migration; migrants; State Migration Service

## References

1. Constitution of the Republic of Azerbaijan. Avalable at: https://e-qanun.az/ framework/897 (in Azerbaijani).

2. Regulations on the State Migration Service of the Republic of Azerbaijan, Decree of the President of the Republic of Azerbaijan, 19th March 2007. No. 560. Available at: https://e-qanun.az/framework/12885 (in Azerbaijani).

3. Criminal Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/ framework/46947 (in Azerbaijani).

4. Migration Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46959 (in Azerbaijani).

5. Decree of the President of the Republic of Azerbaijan on the establishment of the National Coordinating Council for Sustainable Development of the Republic of Azerbaijan, 6 th October 2016, No. 1066. Available at: https://president.az/az/articles/view/21314 (in Azerbaijani).

6. The first meeting of the Migrant Council under the State Migration Service was held (15.03.2022). Available at: https://www.migration.gov.az/az/about_detail/2660 (in Azerbaijani).

7. Law of the Republic of Azerbaijan on public participation. 22 November 2013, No. 816-IVQ. Available at: https://e-qanun.az/framework/26879 (in Azerbaijani).

8. Huseynov V. Hüseynov V. Transparency and citizen satisfaction are the main operating principles of the State Migration Service // Baku: Migration Journal. 2022. No. 21. P. 4-5. Available at: https://www.migration.gov.az/migrasiyajurnalN21.html (in Azerbaijani).

♦ **Sadullayev Samir Arif oglu -** Dissertator of the Department of Law of the National Aviation Academy (Azerbaijan). E-mail: samir_3082@mail.ru

9. UN News: There are approximately 281 million international migrants in the world. Available at: https://news.un.org/ru/story/2022/02/1418252#:~:text (in Russian).

10. The most dangerous paths in the world. Where and how do illegal migrants most often die? BBC News Russian Service, June 29, 2022. Available at: https://www.bbc.com/russian/features-61982637 (in Russian).

11. Global compact for safe, orderly and regular migration. Final draft 11 July 2018. Available at: https://refugeesmigrants.un.org/sites/default/files/180711_final_draft_0.pdf

12. 3rd International Forum on Migration Statistics (IFMS 2023). Available at: https://environmentalmigration.iom.int/events/3rd-international-forum-migration-statistics-ifms-2023-parallel-session-environmental-migration-data-policymaking-experiences-and-innovation-latin-america

**Sədullayev S.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.95-105**
**UOT: 342**

## Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Paktın tələbləri və Azərbaycanın miqrasiya qanunvericiliyi

**Xülasə:** Məqalə Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Paktın prinsiplərinin Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinin prinsipləri ilə müqayisəsinə həsr edilmişdir. Müəllif belə bir fikrə gəlir ki, milli qanunvericilik bu prinsiplərə tam uyğundur və onları daha da inkişaf etdirir, miqrantlarıninsan hüquq və azadlıqlarının etibarlı təmin edilməsinə, miqrasiya sahəsində əməkdaşlığın genişləndirilməsinə, qanunsuz miqrasiya hallarının qarşısının alınmasına xidmət edir.

**Açar sözlər:** miqrasiya; Qlobal Pakt; qanuni miqrasiya; miqrantlar; Dövlət Miqrasiya Xidməti.

Elmi-texniki tərəqqinin fasiləsiz və sürətli inkişafı, dünyanın ikiqütblü bölgüsünün ləğv edilməsi dünyanın geosiyasi strukturunda da köklü dəyişikliklərə gətirdi. İnformasiya proseslərinin dərinləşməsi beynəlxalq aləmdə yeni maraqların və dəyərlərin formalaşmasına, müxtəlif xarakterli ziddiyyətlərin artmasına gətirir. Bu ziddiyyətli proseslər miqrasiya proseslərinə də öz təsirini göstərir. Qlobal problemlər dövlətlərin daxili sabitliyinin formalaşmasına təsir göstərir. Buna görə də miqrasiya dövlətlərin daxili və xarici siyasətinin əsas vəzifələrindən biri olaraq qalmaqda davam edir.“Bu gün təxminən 281 milyon beynəlxalq miqrant var - dünya əhalisinin 3,6 faizi. Söhbət doğulduğu ölkələrdən kənarda yaşayan və işləyən insanlardan gedir” [9].

Beynəlxalq miqrasiya iki əsas anlayışı ehtiva edir: emiqrasiya və immiqrasiya. Emiqrasiya daimi yaşamaq üçün ölkəni tərk etməyi, immiqrasiya isə daimi yaşamaq üçün ölkəyə daxil olmanı nəzərdə tutur.

Beynəlxalq miqrasiya iqtisadi, siyasi, demoqrafik, sosial, ekoloji, hərbi və digər proseslərlə bağlıdır. Həmçinin leqal və qeyri-leqal miqrasiyanı fərqləndirirlər.

♦ **Sədullayev Samir Arif oğlu -** Milli Aviasiya Akademiyası, Hüquq kafedrasının dissertantı (Azərbaycan). E-mail: samir_3082@mail.ru

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslər miqrasiya uçotuna alınmalı, onların barəsində əsasən şəxsi məlumatlar, habelə onların yerdəyişməsi haqqında məlumatlar qeydə alınmalıdır. Miqrasiya Məcəlləsinin 15-ci maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət sərhədinin buraxılış məntəqələrindən keçmək şərti ilə, pasportları və ya digər sərhədkeçmə sənədləri əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər. Azərbaycan Respublikasına gəlmək vizasız və viza ilə mümkündür. Xarici dövlətlərlə müvafiq beynəlxalq müqavilələr bağlanmış olduğu hallarda, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasına vizasız qaydada gələ bilərlər.

Qeyri leqal (qeyri-qanuni) miqrasiya dedikdə işləmək və müvəqqəti və ya daimi yaşamaq məqsədilə xarici ölkəyə qanunsuz daxil olmaq başa düşülür. Qanunvericilikdə "qeyri-leqal miqrasiya" anlayışı "qanunsuz miqrasiya" anlayışı ilə əvəz edilmişdir. Qanunsuz miqrasiya əcnəbilərin Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyini pozaraq ölkəyə daxil olmasını nəzərdə tutur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 318-ci maddəsi Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçməyə görə, yəni mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçməyə görə cinayət məsuliyyətini nəzərdə tutur. Qanunsuz miqrasiya məhz ölkəyə qeyri-qanuni daxil olmaqla başlayır. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin dövlət sərhədindən keçmə qaydasını pozmaqla, saxta və ya etibarsız sənədlərlə ölkə ərazisinə qanunsuz daxil olurlar. Ölkənin ərazisinə qanunsuz daxil olma qanunsuz miqrasiyanı təşkil edir, həm də ölkənin miqrasiya qanunvericiliyi qəsdən pozulur.

Qeyri-leqal miqrasiya qanunsuz miqrasiyaya nisbətən daha dar anlayışdır, ölkəyə qanunsuz daxil olmanı nəzərdə tutur. Qeyri-leqal miqrasiya sənədlərinin olmaması və ya etibarsız hesab edilməsi nəticəsində yaranır. Məsələn, miqrant ölkə ərazisinə qanuni yolla daxil olur və qeydiyyat sənədlərinin qüvvədə olduğu müddətdə həmin ərazidə qanuni qalır, lakin mövcud miqrasiya qanunvericiliyini pozaraq, müəyyən müddət ərzində ölkəni tərk etmir və ya miqrasiya uçotunu yeniləmirsə, bu onun "qanunsuz qalması" hesab olunur.

Ölkə ərazisində qeyri-qanuni məşğulluq əcnəbilərin mövcud qanunlara və müəyyən ölkədə əcnəbi işçilərin əməyindən istifadə qaydalarına uyğun olaraq qanuni olaraq rəsmiləşdirilməmiş əmək fəaliyyətini nəzərdə tutur.

Qeyri-qanuni əmək fəaliyyətinə həmçinin əcnəbilərin işlədiyi dövlətin ərazisində iş icazəsinin, patentin olmaması, vergi ödəməməsi daxildir.

Bir çox əməkçi miqrantlar müvafiq iş icazəsi olmadan, miqrasiya qanunlarını pozaraq, ölkəyə turist kimi və ya təhsil almaq üçün gəlirlər, qeyri-qanuni əmək fəaliyyəti ilə məşğul olurlar və vergi və rüsum ödənilməsindən yayınırlar.

Azərbaycan Respublikasında miqrasiya qanunvericiliyinə uyğun olaraq əcnəbilərin miqrasiya uçotu ölkəyə gələn hər bir əcnəbi vətəndaş üçün məcburi prosedurdur. Əməkçi miqrant haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxsdir.

Qeyri-leqal miqrasiya bir çox hallarda insan hüquqlarının kobud pozulmasına, miqrantların həyatını itirməsi və xəbərsiz itkin düşməsi kimi ağır nəticələrə səbəb olur. Beynəlxalq Miqrasiya Təşkilatının qiymətləndirməsinə əsasən, "2014-cü ildən başlayaraq ABŞ və ya Avropa Birliyi ölkələrinə getməyə çalışarkən 50 minə yaxın miqrant ölmüş və ya itkin düşmüşdür, və real rəqəmlər daha çox ola bilər" [10].

Beynəlxalq qanunsuz miqrasiyanın qarşısının alınmasında dövlətlərin səylərinin birləşdirilməsi üçün 2016-cı ilin sentyabrında qəbul edilmiş Qaçqınlar və Miqrantlar üçün Nyu-York Bəyannaməsində Baş Assambleya təhlükəsiz, nizamlı miqrasiya üçün Qlobal Pakt hazırlanması haqqında qərar qəbul etdi. 10 dekabr 2018-ci il tarixdə Hökumətlərarası Konfrans Mərakeşdə "Təhlükəsiz, nizamlı və qanunimiqrasiya üzrə Qlobal Paktı" qəbul etdi. Paktın qəbul edilməsinin böyük əhəmiyyəti vardır. O, miqrasiya idarəçiliyini təkmilləşdirməyə, müasir miqrasiya problemlərinin həll edilməsinə və miqrasiya problemlərinin həllində dövlətlərin əməkdaşlığının gücləndirməsinə kömək edir. Bu Pakt beynəlxalq miqrasiyaya ümumi yanaşmanı əks etdirən ilk qlobal sazişdir. Pakt miqrasiyanın bütün aspektlərini əhatə edir, hökumətlərarası danışıqlar yolu ilə qəbul edilmişdir və BMT-nin himayəsi altında bu sahədə bağlanmış ilk razılaşmadır.

Qlobal Pakt beynəlxalq insan hüquqları hüququna əsaslanır və dövlətlər tərəfindən bütün miqrantların insan hüquqlarına hörmət edilməsi,qorunması və yerinə yetirilməsi ilə bağlı məsuliyyətini təsdiq edir. Qlobal Pakt Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və insan hüquqları üzrə beynəlxalq müqavilələrə əsaslanır.

Qlobal Pakt müasir miqrasiya ilə bağlı problemlərin həllində dövlətlərin konkret öhdəliklərini, o cümlədən 23 məqsədə nail olunmasını nəzərdə tutur. Bu məqsədlərə miqrasiyanın müxtəlif mərhələlərində miqrantların üzləşdiyi risklərin azaldılması; miqrasiya ilə bağlı sübutlara və insan hüquqlarına əsaslanan siyasətlərin və ictimai müzakirələrin gücləndirilməsi; miqrasiyaya təkan verən müxtəlif qüvvələrin və struktur amillərinin mənfi təsirinin minimuma endirilməsi, o cümlədən yoxsulluq və ayrı-seçkiliklə mübarizə, iqlim dəyişikliyi və fəlakətlər səbəbindən yerdəyişmənin qarşısının alınması; miqrantların məlumat və identifikasiya hüquqlarının təmin edilməsi; həssas vəziyyətdə olan miqrantların xüsusi ehtiyaclarını nəzərə alaraq təhlükəsiz, nizamlı və müntəzəm miqrasiya üçün kanalların genişləndirilməsi; miqrantların layiqli əmək şəraiti və digər əmək hüquqlarının müdafiəsi; miqrasiya kontekstində zəifliklərin öyrənilməsi və azaldılması və insan hüquqlarının pozulması hallarının aradan qaldırılması; miqrasiya kontekstində yaşamaq hüququnun müdafiəsi; miqrant qaçaqmalçılığı və insan alveri ilə mübarizə və qaçaqmalçılıq və ya insan alverinin qurbanı olan şəxslərin insan hüquqlarının müdafiəsi; sərhədlərdə insan hüquqlarına hörmət və hüquqa əsaslanan və fərdi nəzarətlər, yoxlamalar və müraciətlər həyata keçirmək; ayrı-seçkiliyin aradan qaldırılması və nifrət və ksenofobiya ilə mübarizə və s. aiddir. Azərbaycan Respublikası Qlobal Pakta 2018-ci ildə qoşulan ilk ölkələrdən biri olmuşdur.

2019-cu ildə Beynəlxalq Miqrasiya Təşkilatı "Beynəlxalq miqrasiya hüququ. Miqrasiya lüğəti" (№ 34) nəşr etdi. Bu lüğətdə neytral terminlərin tətbiq edilməsinə üstünlük verilmişdir. Məsələn, "qeyri-qanuni miqrantlar" ifadəsi əvəzinə "qeyri-qanuni vəziyyətdə olan miqrantlar" ifadəsindən istifadə etmək təklif edilir. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində istifadə olunmuş "qanunsuz miqrantlar" termininin "qeyri-qanuni vəziyyətdə olan miqrantlar" və ya "qeyri-leqal vəziyyətdə olan miqrantlar" ifadələri ilə dəyişdirilməsini təklif edirik.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 4-cü maddəsinə əsasənMəcəllə Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getməsi, ölkəyə gəlməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan

Respublikasından getməsi, Azərbaycan Respublikasında müvəqqəti olması, onlara müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, onların qeydiyyata alınması, miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri, əmək miqrasiyası, habelə miqrasiyaya dövlət nəzarəti və qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində münasibətləri tənzimləyir.

Miqrasiya Məcəlləsi miqrasiya qanunvericiliyinin prinsiplərinə insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, qanun qarşısında bərabərlik və ədalətlilik, Azərbaycan Respublikası miqrasiya qanunvericiliyinin hamılıqla tanınan beynəlxalq hüquq normalarına uyğunluğunun təmin edilməsi, miqrasiya proseslərinin tənzimlənməsində innovativ metodların tətbiqi və şəffaflığın təmin edilməsi prinsiplərini aid edir.

Qlobal Paktın 15-ci maddəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi zamanı rəhbər tutulacaq prinsiplər müəyyən edilmişdir. Birinci prinsiplər kimi Paktın müddəalarının insan yönümlü olması göstərilmişdir. Qlobal Paktda mühüm yeri miqrasiyanın özünün bir fenomen kimi tərkib hissəsi olan sosial komponent tutur. O, miqrantların və mənşə, tranzit və təyinat ölkələrinin sakinlərinin rifahını təmin etmək məqsədi daşıyır. Beləliklə, insanlara qayğı Qlobal Paktın əsasını təşkil edir. Miqrasiya Məcəlləsinin 2-ci maddəsində Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinin prinsipləri sırasında birinci olaraq, insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipini göstərir. Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipinə insan ləyaqətinin qorunması və ona hörmət edilməsi, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqlarının olması, hüquqlar və azadlıqların hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə etməsi, hüquqlardan sui-istifadəyə yol verilməməsini aid edir. Konstitusiyanın 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

Qlobal Paktın 2-ci prinsipi beynəlxalq əməkdaşlıqdır. Qlobal Pakt miqrasiyanın transmilli xarakterinə görəheç bir dövlətin miqrasiya məsələlərini müstəqil həll edə bilməyəcəyini qəbul edən əməkdaşlıq üçün hüquqi cəhətdən məcburi olmayan çərçivə sənədidir. Bunun üçün beynəlxalq, regional və ikitərəfli əməkdaşlıq və dialoq lazımdır. Bu sənədin gücü onun konsensual xarakterində və etibarlılığında, kollektiv məsuliyyət və birgə icra prinsiplərində və onun təqib və nəzərdən keçirilməsi mexanizmlərindədir**.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamənin 10.13-cü maddəsinə əsasən Xidmət qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq edir.

Qlobal Paktın 3-cü prinsipi milli suverenlikdir. Qlobal Pakt dövlətlərin öz milli miqrasiya siyasətlərini müəyyən etmək və beynəlxalq hüquqa uyğun olaraq yurisdiksiyaları daxilində

miqrasiyanı tənzimləmək üçün suveren hüquqlarını bir daha təsdiq edir. Dövlətlər öz suveren yurisdiksiyaları daxilində qanuni və qeyri-qanuni miqrasiya statusunu, o cümlədən Qlobal Paktın həyata keçirilməsi üçün qanunvericilik və siyasi tədbirləri müəyyən edərkən, müxtəlif milli şəraiti, siyasətləri, prioritetləri nəzərə alaraq, beynəlxalq hüquq normalarına uyğun olaraq giriş, yaşayış və işləmə tələblərini nəzərə almaqla fərqləndirə bilərlər. Miqrasiya Məcəlləsinin 4-cü maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getməsi, ölkəyə gəlməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi, Azərbaycan Respublikasında müvəqqəti olması, onlara müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, onların qeydiyyata alınması, miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri, əmək miqrasiyası, habelə miqrasiyaya dövlət nəzarəti və qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində münasibətlər Miqrasiya Məcəlləsi ilə tənzimlənir.

Qlobal Paktın 4-cü prinsipiqanunun aliliyi və hüquqi prosedurlara riayət edilməsidir. Qlobal Pakt qeyd edir ki, qanunun aliliyinə hörmət, lazımi hüquqi prosedurlara riayət edilməsi və ədalət mühakiməsinə çıxış miqrasiyanın bütün aspektlərinin tənzim edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Bu o deməkdir ki, dövlət, dövlət və özəl qurumlar və təşkilatlar və insanlar publik şəkildə qəbul edilmiş və beynəlxalq hüquqa uyğun gələn qanunlar qarşısında məsuliyyət daşıyırlar, bərabər şəkildə icra edilirlər və məhkəmə orqanları tərəfindən müstəqil icra edilirlər. Miqrasiya Məcəlləsinin 2-ci maddəsində adı çəkilən prinsiplərdən biri də qanunçuluq prinsipidir. Konstitusiyanın 60-cı maddəsi hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verir və hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

Qlobal Paktın prinsiplərindən biri dayanıqlı inkişafdır. Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinə əsaslanan Qlobal Pakt, miqrasiyanın mənşə, tranzit və təyinat ölkələrinin davamlı inkişafı üçün vacib olan çoxölçülü bir fenomen olduğunu və ardıcıl və inteqrasiya olunmuş yanaşma tələb etdiyini etirafına əsaslanır. Miqrasiya, xüsusilə düzgün idarə edildikdə, müsbət inkişaf nəticələrinə və 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinə nail olunmasına töhfə verir. Qlobal Pakt bütün Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün miqrasiya potensialının reallaşdırılmasına kömək etmək və bu Məqsədlərə nail olunmasının gələcək miqrasiyaya təsirindən istifadə etmək məqsədi daşıyır. Respublikamız BMT üzvü olan dövlətlərin 2015-ci ilin 25-27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Azərbaycan Respublikası Prezidentinin 06 oktyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

İnsan hüquqları Qlobal paktın əsas prinsiplərindəndir. Qlobal pakt beynəlxalq insan hüquqları hüququna əsaslanır və geri çəkilməmək və ayrı-seçkiliyə yol verməmək prinsiplərini təsdiq edir. Qlobal Paktı həyata keçirməklə miqrasiya statusundan asılı olmayaraq bütün miqrantların insan hüquqlarına miqrasiya dövrünün bütün mərhələlərində lazımi şəkildə riayət olunması, qorunması və yerinə yetirilməsi təmin edilir. Həmçinin miqrantlara və onların ailə üzvlərinə qarşı irqçilik, ksenofobiya və dözümsüzlük də daxil olmaqla, ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaq öhdəliyi bir daha təsdiq edilir. Konstitusiyanın 25-ci maddəsinə

əsasən hamı qanun və məhkəmə qarşısında bərabərdir. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Gender aspektlərinin nəzərə alınması Qlobal Paktın prinsiplərindəndir. Qlobal Pakt miqrasiyanın bütün mərhələlərində qadınların, kişilərin, qızların və oğlanların insan hüquqlarına hörmət edilməsini, onların xüsusi ehtiyaclarının düzgün başa düşülməsini və qarşılanmasını və onlara dəyişiklik agentləri kimi səlahiyyət verilməsini təmin edir. O, genderə həssasdır və gender bərabərliyinə və bütün qadınların və qızların səlahiyyətlərinin artırılmasına nail olmaq üçün baxışı ifadə edir və onların müstəqilliyini, yaradıcılığını və miqrant qadınların qurban kimi üstünlük təşkil edən qavrayışını aradan qaldırmaq üçün təşəbbüsü tanıyır.Konstitusiyanın 25-ci maddəsinə əsasən kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Miqrasiya Məcəlləsinin 84.2-ci maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər yaşayış otaqlarında bir ailəyə mənsub olmaları, yaşı, cinsi, məhkumluğu, səhhəti nəzərə alınmaqla, Məcəllənin 84.3.2-cü maddəsinə əsasən, qadınlar kişilərdən (ailə üzvləri istisna olmaqla) saxlanılırlar.

Uşaqların maraqlarının nəzərə alınması Qlobal Paktın digər prinsipidir. Qlobal Pakt uşaq hüquqları ilə bağlı mövcud beynəlxalq hüquqi öhdəliklərin həyata keçirilməsini təşviq edir və beynəlxalq miqrasiya kontekstində uşaqların, o cümlədən müşayiət olunmayan və ayrılmış uşaqların iştirak etdiyi bütün vəziyyətlərdə bütün hallarda uşağın ən yaxşı mənafeləri prinsipini əsas kimi təsdiq edir.Uşaq hüquqları haqqında Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi uşaq mənafelərinin üstünlüyünü nəzərdə tutur, dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır.

Bütün dövlət orqanlarının cəlb edilməsi Qlobal Paktın prinsipidir. Qlobal Pakt miqrasiyaya çoxölçülü bir fenomen kimi baxır, buna görə də bu, hökumətin hər hansı bir qolunu maraqlandıra bilməz. Miqrasiya üzrə effektiv siyasət və təcrübələrin işlənib hazırlanması və həyata keçirilməsi hökumətin bütün sektorları və səviyyələri üzrə üfüqi və şaquli siyasət uyğunluğunu təmin etmək üçün bütün hökumət subyektlərinin iştirakını tələb edir. Miqrasiya Məcəlləsinin 57.2-ci maddəsi müvafiq dövlət orqanları əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinin qanuniliyinə, onların sosial müdafiəsinin təmin olunmasına, hüquqi və fiziki şəxslərin əmək miqrasiyası sahəsindəki fəaliyyətlərinə nəzarəti həyata keçirirlər. Miqrasiya siyasətinin həyata keçirilməsi demək olar ki, bütün dövlət orqanlarının fəaliyyətini əhatə edir. Bu orqanlara Dövlət Miqrasiya Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizlik Xidməti və digər orqanlar aiddirlər. Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamədə xidmətin öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə, habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi müəyyən edilmişdir.

Qlobal Paktda miqrasiya ilə bağlı məsələlərin bütün aspektlərinin həllində miqrantların özlərinin, diasporların, yerli icmaların, vətəndaş cəmiyyətlərinin, akademik dairələrin, özəl

sektorun, parlamentarilərin, həmkarlar ittifaqlarının, milli insan hüquqları institutlarının, media və digər aktyorların tənzimetmə prosesinə cəlb edilməsi vasitəsilə müxtəlif subyektlərin geniş əməkdaşlığının formalaşdırılmasını müdafiə edir. 2022-ci ildə Dövlət Miqrasiya Xidməti yanında İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikası Qanununa uyğun olaraq, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrdən ibarət olan 8 nəfər üzvdən ibarət Miqrant Şurası yaradılmışdır. Miqrant Şurası ölkəmizdə yaşayan miqrantların Azərbaycan Respublikasının miqrasiya idarəçiliyinə daha aktiv cəlb edilməsi, onların hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, habelə miqrasiya sahəsində qəbul edilmiş qərarların əcnəbilərin gündəlik həyatına təsirinin qiymətləndirilməsi məqsədilə yaradılmışdır [6].

Miqrasiya Məcəlləsinin 2-ci maddəsi qeyd olunan prinsiplərlə yanaşı ədalətlilik, Azərbaycan Respublikası miqrasiya qanunvericiliyinin hamılıqla tanınan beynəlxalq hüquq normalarına uyğunluğunun təmin edilməsi, miqrasiya proseslərinin tənzimlənməsində innovativ metodların tətbiqi və şəffaflığın təminedilməsi prinsiplərini də rəhbər tutur.

Dövlət Miqrasiya Xidmətində innovativ metodlar müvəffəqiyyətlə təmin olunur.“Miqrasiya proseslərinin idarə edilməsində müasir texnologiyaların və innovativ yeniliklərin tətbiqi, eləcə də “MigAz” tətbiqinin istifadəyə verilməsi “ASAN Viza” sistemində viza növlərinin siyahısına əmək vizasının daxil edilməsi vətəndaşların, əcnəbilərin, əməkçi mirqantların hüquqi vəziyyətlərinin yaxşılaşdırılmasına, rahatlıqlarının təmin olunmasına xidmət edir… Göstərilən xidmətlər “Elektron hökumət” portalına inteqrasiya olunub. Elektron xidmətlərin tətbiqi və inkişafı təmin edilib, yeni texnologiyalardan istifadə genişlənib. Əcnəbilərə göstərilən elektron xidmətlərin sayı artırılaraq 11-dən 14-ə çatdırılıb. Bütün bunlarla yanaşı Dövlət Miqrasiya Xidməti əcnəbilərə göstərdiyi xidmətləri “ASAN Xidmət” mərkəzlərində də həyata keçirir” [8, s.4-5].

Azərbaycan Respublikasında “Mobil miqrasiya” tətbiqi yaradılmış və “Çağrı mərkəzi” fəaliyyət göstərir. Elektron xidmətlərə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması, müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti yaşamaq üçün icazənin verilməsi və s. daxilolmaqla 20 fəaliyyət elektronlaşdırılmışdır.

Miqrasiya Statistikası üzrə Beynəlxalq Forum sübuta əsaslanan miqrasiya siyasətini dəstəkləmək üçün addımlar təklif etmişdir. 3-cü Beynəlxalq Miqrasiya Statistikası Forumu (IFMS 2023) BMT-nın İqtisadi və Sosial Məsələlər Departamentinin (DESA) Statistika və Əhali Departamenti, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) təşkilatçılığı ilə 24-26 yanvar 2023-cü ildə keçirilmişdir. IFMS 2023 dünya miqyasında miqrasiya məlumatlarının toplanması, təhlili və istifadəsini təkmilləşdirmək, mövcud miqrasiya məlumatları boşluqlarını doldurmaq və siyasətin hazırlanmasını daha yaxşı məlumatlandırmaq yollarını müzakirə etdilər. Əvvəlki iki forumda olduğu kimi, bu tədbir statistika, iqtisadiyyat, demoqrafiya, sosiologiya, geoməkan elmləri və informasiya texnologiyaları kimi bir sıra fənlərdən ekspertləri səfərbər etdi. IFMS 2023 milli və beynəlxalq statistika idarələri, digər dövlət qurumları, beynəlxalq təşkilatlar, akademik dairələr, vətəndaş cəmiyyəti və özəl sektordan miqrasiya statistikası istehsalçılarını və istifadəçilərini bir araya gətirdi.Daha yaxşı qərar və siyasətin qəbulu üçün miqrasiya məlumatlarını necə təkmilləşdirməyi müzakirə etmək üçün müxtəlif maraqlı tərəfləri (onlayn və şəxsən ) bir araya gətirilməsi beynəlxalq məlumatlar bazasının formalaşdırlmasına xidmət edir. Qeyd etmək lazımdır ki, ölkə

ərazisində miqrasiya ilı bağlı statistika Dövlət Miqrasiya Xidməti tərəfindən hazırlanır və Xidmətin saytında yerləşdirilir.

Qeyd olunnaları ümumiləşdirərək, belə bir nəticəyə gələ bilərik ki, Qlobal Paktın bütün prinsipləri Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyində və təcrübəsində öz əksini tapmışdır. Miqrasiya qeyd olunan prinsiplərlə yanaşı, həmin prinsiplərin tətbiqinin səmərəliliyini artıran digər prinsipləri də nəzərdə tutmuşdur. Qeyd olunan prinsiplər ölkəmizdə müvəffəqiyyətlə tətbiq olunur, Azərbaycan Respublikasında miqrantların insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsinə, miqrasiya sahəsində əməkdaşlığın genişləndirilməsinə, qanunsuz miqrasiya hallarının qarşısının alınmasına xidmət edir.

**Biblioqrafiya**

1.Azərbaycan Respublikasının Konstitusiyası. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/897

2.Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə, Azərbaycan Respublikası Prezidentinin Fərmanı,2007-ci il 19 mart, № 560. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/12885

3.Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46947

4.Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46959

5.Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 06 oktyabr 2016, № 1066. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/21314

6. Dövlət Miqrasiya Xidməti yanında Miqrant Şurasının ilk iclası keçirilib (15.03.2022). [Elektron resurs]. URL: https://www.migration.gov.az/az/about_detail/2660

7. İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasl Qanunu, 22 noyabr 2013, № 816-IVQ. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/26879

8.Hüseynov V. Şəffaflıq və vətəndaş məmnunluğu Dövlət Miqrasiya Xidmətinin əsas fəaliyyət prinsipidir//-Bakı:Miqrasiya jurnalı. - 2022. № 21. - S. 4-5. [Elektron resurs]. URL: https://www.migration.gov.az/migrasiyajurnalN21.html

9.В мире насчитывается примерно 281 млн международных мигрантов Новости ООН. [Elektron resurs]. URL: https://news.un.org/ru/story/2022/02/1418252#:~:text

10. Самые опасные пути мира. Где и как чаще всего гибнут нелегальныемигранты. BBC News Русская служба, 29 июня 2022. [Elektron resurs]. URL: https://www.bbc.com/russian/features-61982637

11. Global compact for safe, orderly and regular migration. Final draft 11 July 2018. [Elektron resurs]. URL: https://refugeesmigrants.un.org/sites/default/files/180711_final_draft_0.pdf

12. 3rd International Forum on Migration Statistics (IFMS 2023). [Elektron resurs]. URL: https://environmentalmigration.iom.int/events/3rd-international-forum-migration-statistics-ifms-2023-parallel-session-environmental-migration-data-policymaking-experiences-and-innovation-latin-america

**Садуллаев С.А.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.95-105**
**УДК: 342**

## Требования Глобального Пакта о безопасной, упорядоченной и легальной миграции и миграционного законодательства Азербайджана

**Аннотация:** Сопоставляются принципы Глобального договора о безопасной, упорядоченной и легальной миграции с принципами миграционного законодательства Азербайджанской Республики. Автор придерживается мнения, что национальное законодательство полностью соответствует этим принципам и развивает их, служит надежному обеспечению прав и свобод человека мигрантов, расширению сотрудничества в сфере миграции, предотвращению случаев нелегальной миграции.

**Ключевые слова**: миграция; Глобальный пакт; легальная миграция; мигранты; Государственная миграционная служба.

## Библиография

1. Конституция Азербайджанской Республики [Электронный ресурс]. URL: https://e-qanun.az/ framework/897 (на азерб. яз.).

2. Положение о Государственной Миграционной Службе Азербайджанской Республики. Указ Президента Азербайджанской Республики от 19 марта 2007 года, № 560. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/12885 (на азерб. яз.).

3. Уголовный Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/ framework/46947 (на азерб. яз.).

4. Миграционный Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/46959 (на азерб. яз.).

5. Указ Президента Азербайджанской Республики о создании Национального координационного совета по устойчивому развитию Азербайджанской Республики. 6 октября 2016 октября 2016 года, № 1066. [Электронный ресурс]. URL: https://president.az/az/articles/view/21314 (на азерб. яз.).

6. Состоялось первое заседание Совета по мигрантам при Государственной миграционной службе (15.03.2022). [Электронный ресурс]. URL: https://www.migration.gov.az/ az/about_detail/2660 (на азерб. яз.).

7. Закон Азербайджанской Республики Об участии общественности от 22 ноября 2013 года № 816-IVQ. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/26879 (на азерб. яз.).

8. Гусейнов В. Прозрачность и удовлетворенность граждан – основные принципы работы Государственной миграционной службы // Баку: Журнал Миграция. - 2022. - № 21. -

♦ **Садуллаев Самир Ариф оглы –** диссертант кафедры «Право» Национальной академии авиации (Азербайджан).. E-mail: samir_3082@mail.ru

С. 4-5. [Электронный ресурс]. URL: https://www.migration.gov.az/migrasiyajurnalN21.html (на азерб. яз.).

9.В мире насчитывается примерно 281 млн международных мигрантов Новости ООН. [Электронный ресурс]. URL: https://news.un.org/ru/story/2022/02/1418252#:~:text

10. Самые опасные пути мира. Где и как чаще всего гибнут нелегальныемигранты. BBC News Русская служба, 29 июня 2022. [Электронный ресурс]. URL: https://www.bbc.com/russian/features-61982637

11. Global compact for safe, orderly and regular migration. Final draft 11 July 2018. [Электронный ресурс]. URL: https://refugeesmigrants.un.org/sites/default/files/180711_final_draft_0.pdf

12. 3rd International Forum on Migration Statistics (IFMS 2023). [Электронный ресурс]. URL: https://environmentalmigration.iom.int/events/3rd-international-forum-migration-statistics-ifms-2023-parallel-session-environmental-migration-data-policymaking-experiences-and-innovation-latin-america